# Şabran: ötən il nəzərəçarpan dəyişikliklər baş vermişdir





Ölkəmizdə bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində böyük əhəmiyyət kəsb edən regionların sosial-iqtisadi inkişafına aid növbəti Dövlət Proqramı Şabranda da uğurla icra olunur. Rayonda bir sıra mühüm layihələr həyata keçirilir. Yollar əsaslı surətdə yenidən qurulur, müasir istehsal müəssisələri istifadəyə verilir, əhalinin məşğulluq səviyyəsi yüksəlir, yeni-yeni iş yerləri yaradılır. Arxada qalan 2019-cu ildə rayonun iqtisadiyyatı daha da inkişaf etmiş, adamların həyat səviyyəsi xeyli yüksəlmişdir. Bütün bunlar haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn vəzifələr barədə **Şabran Rayon İcra Hakimiyyəti başçısı Asif Hüseynovun** hesabat məruzəsində ətraflı məlumat verilmişdir. Məruzədə qeyd olunmuşdur ki, yola saldığımız ötən ildə də rayonumuz üçün əhəmiyyətli layihələrin icrası davam etmişdir. Rayon mərkəzindən 15 kilometr məsafədə 6103 nəfər əhalinin yaşadığı, 5 yaşayış məntəqəsini birləşdirən Şabran-Əmirxanlı-Qazbabalı və uzunluğu 3 kilometr olan Uzunboyad avtomobil yolu tikilib istifadəyə verilmişdir. 23 kilometr uzunluğunda olan Şabran-Düzbilici-Qorğan-Çinarlar yolunun da tikintisi yekunlaşmışdır. 12310 nəfərdən çox əhalinin yaşadığı 9 yaşayış məntəqəsini əhatə edən 39 kilometrlik Şabran-Çayqaraqaşlı-Hacıqaraqaşlı-Udulu yolunun tikintisi yaxın vaxtlarda başa çatacaqdır. Dövlət əhəmiyyətli bəzi layihələr də rayonumuzun coğrafiyasını əhatə edir. 23 kilometri rayonumuzun ərazisindən keçən yeni dörd zolaqlı Bakı-Rusiya Federasiyası avtomobil yolunun tikintisi davam edir. Pirəbədil kəndinin ərazisində 12.6 hektar sahədə Yaradıcılıq ittifaqları üçün şəhərcik salınır.

2019-cu ili rayonumuz iqtisadiyyatın, sosial-mədəni həyatın bütün sahələrini nəzərəçarpan yüksək göstəricilərlə başa vurmuşdur. Məhsul buraxılışının ümumi həcmi əvvəlki illə müqayisədə 25 milyon manat və ya 9 faiz artaraq 300 milyon manata çatmışdır. Bunun 50 milyon manatı və ya 16.5 faizi sənaye, 123.7 milyon manatı və ya 43.5 faizi kənd təsərrüfatı, 94 milyon manatı və ya 33.1 faizi tikinti, 31.3 milyon manatı və ya 11 faizi ticarət, 1.9 milyon manatı və ya 0.7 faizi nəqliyyat və rabitənin payına düşür. Rayonda sənaye məhsulları istehsalı ötən ildəkindən 22.5 milyon manat və ya 82 faiz, tikinti-quraşdırma işləri 7.6 milyon manat və ya 8.8 faiz, nəqliyyat və rabitə xidmətləri 81.2 min manat və ya 4 faiz, ticarət xidmətləri isə 868 min manat və ya 2.9 faiz artmışdır. Son 16 ildə rayonda məhsul buraxılışı 14.7 dəfə, kənd təsərrüfatı 9 dəfə, sənaye istehsalı 18.5 dəfə, ticarət dövriyyəsi 10 dəfə, orta aylıq əmək haqqı 10.3 dəfə, iş yerləri 43.3 dəfə və daimi iş yeri 30.2 dəfə artmışdır. Ötən il rayonda çörək məmulatları ilə məşğul olan müvafiq istehsal müəssisələri tərəfindən 28.7 min ton un və kəpək, "Merit Brand" MMC tərəfindən 125 dekalitr spirtli içkilər istehsal edilmiş və 382 kvadratmetr xalça toxunmuşdur. İl ərzində 766 iş yeri açılmışdır ki, onun da 513-ü daimi iş yerləridir. Rayon Məşğulluq Mərkəzinə il ərzində 1906 nəfər müraciət etmiş və 310 nəfəri ictimai işlərə cəlb edilmişdir. 218 nəfər vətəndaş özünüməşğulluq proqramının təlimlərində iştirak etmişdir.

Azərbaycanın gələcək inkişafının sahibkarlığın inkişafından asılı olduğunu dəfələrlə bəyan edən Prezident cənab İlham Əliyevin xüsusi qayğısı və diqqəti sayəsində ölkəmizdə sahibkarlıq bütün səviyyələrdə (kiçik, orta, iri) sürətlə inkişaf edir, biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir. Rayonumuzda da sahibkarlığın inkişafı üçün əlverişli mühit, kifayət qədər ehtiyat mənbələri vardır. İndi 173 hüquqi, 6413 fiziki şəxs olmaqla rayonda 6586 sahibkarlıq subyekti fəaliyyət göstərir. Ötən ilin müvafiq dövrünə nisbətən sahibkarlıq subyektlərinin sayı bir ildə 300 vahid və ya 4,7 faiz artmışdır. Yola saldığımız ildə rayonumuzda 4 özəl sahibkarlıq müəssisəsi yaranmışdır ki, onlardan 1-i kənd təsərrüfatı, 1-i xidmət, 2-si ticarət sahəsinə aiddir.

Rayonda sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, iqtisadi inkişafla yanaşı, həm də yeni iş yerlərinin yaranması, əhalinin məşğulluq probleminin həlli deməkdir. Rayon icra hakimiyyəti bu sahənin təşviqini öz fəaliyyətinin ən prioritet sahəsi hesab edir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir fərdi dəstəkləyir və mümkün köməkliyi göstərmək əzmindədir. Bu istiqamətdə bütün əlaqələrdən və imkanlardan istifadə edir. Ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı ilə məşğul olan 26 nəfər sahibkara 6.4 milyon manat kredit verilmiş və 224 yeni iş yeri yaradılmışdır.

Ötən il rayonda tikinti, abadlıq, quruculuq işləri də diqqət mərkəzində olmuşdur. Rayon mərkəzində, yaşayış məntəqələrində mənzil-məişət, yol-tikinti, su təchizatı və digər sosial infrastrukturun möhkəmləndirilməsi istiqamətində tədbirlər görülmüşdür. Rayonun Şəhidlər Xiyabanında uzunluğu 32 metr olan hasarı və giriş qapısı sökülmüş, mişar daşından yeni üslubda tikilərək aqlay materialla üzlənmişdir. Xiyabanın ərazisində 198 kvadratmetr aqlay üzlük vurulmuş, 29 kvadratmetr sement məhsulu ilə suvaq işi və 110 kvadratmetr səki səthində tamet üzlənmə işi aparılmışdır. Şəhərin Heydər Əliyev prospektində, M.Ə.Rəsulzadə, Ş.Vahabzadə, A.Mirzə və Z.Əliyeva küçələrində piyada yollarının bərpası və təmir-tikinti işləri davam etdirilmişdir. 14 küçəyə 9.5 kilometr asfalt və 10 küçəyə 5.2 kilometr çınqıl daş döşənmişdir.

Rayonda 123 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bunun da 101 milyon manatı heyvandarlıq, 22.5 milyon manatı bitkiçilik məhsulları olmuşdur. 13555 hektar sahədən 32.4 min ton, müvafiq dövrdəkindən 1180 ton çox taxıl istehsal edilmişdir. Cari ilin məhsulu üçün də rayonda fermerlər, ailə təsərrüfatları və müəssisələr tərəfindən ötən ilə nisbətən 1320 ha çox, yeni 14782 ha sahədə dənli bitkilər əkilmişdir. O cümlədən 8431 ha buğda, 6351 ha arpa səpini aparılmışdır. 518 ton tərəvəz və bostan sahəsindən 5291 ton məhsul götürülmüşdür. İstixana şəraitində 334.5 ton (44 ton xiyar və 290 ton pomidor) tərəvəz yetişdirilmişdir. Rayonda istixana şəraitində tərəvəz yetişdirilməsi praktikası geniş tətbiq edilməkdədir. Hazırda rayonda 7 istixana fəaliyyət göstərir. Ötən il rayonda 9755 ton meyvə və 2468 ton üzüm istehsal edilmişdir ki, bu da əvvəlki ildən 921 ton meyvə və 164.8 ton üzüm çoxdur. 113 hektar kartof sahəsindən 873.5 tona yaxın məhsul götürülmüşdür.

Kənd təsərrüfatının digər sahələri ilə yanaşı, rayonumuzun təbii iqlim şəraiti üçün əlverişli olan arıçılığın inkişafına da önəm artıb. Rayonda 251 fərdi təsərrüfatda 5615 arı ailəsi mövcuddur. Ötən il arıçılarımız 66 ton bal və bal məhsulları istehsal etmişdir.

Ölkədə yaradılmaqda olan 51 aqroparkdan 2-si bizim rayonun payına düşür. Ağalıq İnzibati Ərazi Dairəsinin Udulu kəndindəki "Şabran Aqrokompleks" və Şabran şəhəri ilə Çölquşçu ərazisində Uzunboyad, Rəhimli, Dəvəçi İnzibati Ərazilərini də əhatə edən "Çıraqqala Aqroparkı". 200 nəfər işçinin çalışacağı Udulu kəndi ərazisində 1770 hektar sahədə yeni yaradılmış "Şabran Aqrokompleks"də infrastruktur işləri artıq yekunlaşmışdır.

Rayonumuzda mövcud 21761 hektar əkinəyararlı torpaqların 18500 hektarı və ya 85 faizi suvarılan torpaqlardır. Şabran Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən rayonun mövcud suvarılan torpaqlarının su təminatının yaxşılaşdırılması üçün ötən il 320 kilometr beton kanal, 18 kilometr kollektor, 80 km beton üzlüklü arx lildən təmizləmiş, 101 ədəd hidrotexniki qurğu təmir olunmuş, 2.2 km torpaq kanala beton üzlük vurulmuşdur. Çay məcralarında 190 min kubmetr məcratəmizləmə işləri aparılmışdır. Ötən il yeni suvarılan torpaq sahələrində 13 km qapalı suvarma şəbəkəsi və 18 km kollektor-drenaj şəbəkəsi tikilmişdir. Cari ildə 400 km suvarma arxı, 20 km kollektorda lildəntəmizlənmə işləri, 110 ədəd hidrotexniki qurğu təmir və 90 km beton üzlüklü kanallarda təmizlənmə işləri planlaşdırılır. Rayonun Padar, Aygünlü kəndlərində və şəhərin Güləmli yaşayış massivində artezian quyusunun qazılması nəzərdə tutulmuşdur.

Rayonda elektrik enerjisi, təbii qaz, içməli su və kanalizasiya şəbəkəsinin tikintisi layihələrinin icrası istiqamətində də işlər görülür. Elektrik Şəbəkə tərəfindən 10 kilovoltluq hava xətlərində 27 ədəd metal, 6 ədəd beton dayaq quraşdırılmış, 2 kilometr naqil çəkilmiş və 111 ədəd izolyator bağlanmışdır. Pirəbədil kəndində 0.4 kV-luq şəbəkədə 30 ədəd metal dayaq basdırılmış və 1.5 km ÖİN kabel çəkilmişdir. 2020-ci ildə Pirəmsən, Şahnəzərli, Rəhimli kəndlərində 0.4 kV-luq şəbəkənin yenidən qurulması planlaşdırılır.

Rayonda əhalinin mavi yanacaqla təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər davam edir.

Rayonda rabitə xidmətinin vəziyyəti də qənaətbəxşdir. 2019-cu ildə əhaliyə 498 min manatlıq rabitə xidməti göstərilmişdir. Rayonun Ağbaş, Uzunboyad, Rəhimli kəndləri və şəhərin Güləmli yaşayış massivi üzrə küçələr telefonlaşdırılmış və internet xidməti ilə təmin edilmişdir. Rayon ərazisində 274 telefon və 698 internet çəkilişi aparılmışdır. Hazırda rayon üzrə internet abunəçilərinin sayı 2650 nəfərdir. Cari ildə Günəşli kəndində də yeni elektron ATS-in quraşdırılması nəzərdə tutulur.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

Respublika.- 2020.- 7 mart.- S.5.